# Demokratiya və İnsan Hüquqları

## BİZİMLƏ BAŞLAYIR !

Avropa Şurasını
Demokratik Vətəndaşlıq və
Insan Hüquqları haqqında
Təhsil üzrə Xartiyası

## HƏR KƏSIN XARTIYASI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Demokratiya və İnsan Hüquqları

**BİZİMLƏ BAŞLAYIR !**

**Avropa Şurasını**
Demokratik Vətəndaşlıq və
Insan Hüquqları haqqında
Təhsil üzrə Xartiyası

**HƏR KƏSIN XARTIYASI**

*Bu kitabda təqdim olunan fikirlərə görə məsuliyyəti müəlliflər daşıyır və bunlar, heç də Avropa Şurasının rəsmi siyasətini əks etdirmir.*

Bu sənədin bütövlükdə və ya hər hansı bir hissəsinin yenidən nəşri və ya tərcüməsi ilə bağlı istənilən müraciətlər Kommunikasiya Direktoratlığına (F-67075 Strasburq Cedex və ya publishing@coe.int) edilməlidir. Bu materialla bağlı istənilən digər məsələlər üçün isə Avropa Şurasının Təhsil Departamentinə müraciət olunmalıdır.

Bu kitab Finlandiya hökumətinin dəstəyi ilə nəşr edilib.

Redaktor:
Elena Díez Villagrasa

Rəyçi:
Annette Schneider

Korrektor:
Catherine Rowles-Holm

Qrafik dizayn, struktur və illüstrasiyalar:
Pampaneo

©Avropa Şurası, avqust 2012
Avropa Şurası tərəfindən nəşr edilib
Yenidən nəşr olunmuşdur: yanvar 2014

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# BURADA NƏ TAPA BİLƏRSƏN ?


1 Niyə Xartiya ? ____ 5
2 İnsan hüquqları nədir ____ 6
3 Demokratik vətəndaşlıq nədir ? ____ 8
4 Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil nədir ? ____ 11
5 İnsan hüquqları və demokratiyanın prinsipləri hansılardır ? ____ 13
- Müxtəlifliyi dəyərləndirmək ____ 14
- Hər kəsi daxil etmək ____ 16
- Hər kəsə bərabər şanslar vermək ____ 17
- İnsan ləyaqətinə hörmət etmək ____ 18
- Sülh içində yaşamaq ____ 19

6 EDC/HRE (Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil) ilə kim məşğul olur ? ____ 20
7 Məktəblər və təşkilatlar insan hüquqlarına və demokratiyaya hörmət edirmi ? ____ 23
8 EDC/HRE-i (Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil) təşviq etmək üçün nə etməliyik ? ____ 26




Mətndə həmçinin Xartiyanı daha yaxşı başa düşməyə yardım edəcək müxtəlif elementləri görəcəksən:






Həyata keçirilməli olan fikirlər



Ən vacib fikirlər



Düşünmə.
Tısbağalar bir çox mədəniyyətdə müdrikliyin simvoludur. Ona rast gəldiyin zaman, ifadə etmək istədiyi fikirlər barədə düşün !

# 1 Niyə Xartiya ?

1949-cu ildə yaradılmış Avropa Şurası aşağıdakı dəyərləri paylaşan ölkələri bir araya gətirir :

- **insan hüquqları**
- **demokratiya ;**
- **və qanunun aliliyi.**

**Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil haqqında Xartiyası** bu dəyərlərin təhsildə və təhsillə təşviq edilməsinə əmin olmaq üçün hazırlanmışdır. Bir qayda olaraq, xartiya dedikdə müxtəlif ölkələrin konkret sahədə etmək istədikləri müəyyən məsələləri izah edən hüquqi sənəd başa düşülür.

**Qanunun aliliyi o deməkdir ki, hər hansı bir ölkədə hökumət kimi səlahiyyətli orqanlar bu ölkənin bütün insanları kimi qanuna riayət etməlidirlər; səlahiyyətli orqan olmaları onlara istədiklərini etmək səlahiyyətini vermir. Insan hüquqları və demokratiya barəsində daha ətraflı məlumat üçün Fəsil 2 və Fəsil 3-ə bax**

2010-cu ildə, Avropa Şurasının bütün 47 üzv dövləti Xartiyanı qəbul etdi.
Xartiyanı qəbul etməklə bu ölkələrin hökumətləri :

- demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsilin əhəmiyyətini qəbul etdilər;
- bu sənəddə yazılmış fikir və tövsiyələrə öz ölkələrinin qanun və qaydalarına və orada yaşayan insanların əsas prioritetlərinə həmişə hörmət edərək riayət etməyə razılıq verdilər.

**Avropa Şurasını 28 üzv dövləti olan Avropa İttifaqı ilə qarışdırma !**







Xartiya **Demokratik Vətəndaşlıq** və **İnsan Hüquqları sahəsində Təhsildən** bəhs edir Amma bunun dəqiq mənası nədir ?

# 2 İnsan hüquqlari nədir ?

**İnsan hüquqları** insanların ləyaqətli şəkildə yaşaması üçün **lazım olanları** əks etdirir. İnsan hüquqlarına hörmət edilmədikdə insanlarla insan kimi rəftar edilmir.

**İnsan hüquqları heç kəsin səndən ala bilmədiyi hüquqlardır**

Yaxşı, təhlükəsiz və sağlam şəkildə yaşaman və böyümən üçün nələrə ehtiyacın var ?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

Bunlardan hər hansı birinə hələ böyük olmadığın üçün ehtiyacın varmı ? Əgər elədirsə hansılara ehtiyacın var?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

İnsan hüquqlarına hər zaman riayət edilmir. Buna görə də onları qorumaq üçün tarix boyu müxtəlif sənədlərdə qanunlar yazılmışdır. Ən vacib sənədlərdən biri **Ümumdünya İnsan Hüquqları Bəyannaməsi** dir.
Bu sənədlə, ilk dəfə olaraq, dünyanın dörd bir tərəfindən olan ölkələr insan hüquqlarını qorumağa söz verdi. Amma bu yeganə sənəd deyil. Məsələn, Avropada insan hüquqlarnın qorunması üçün çox vacib sənəd **Avropa İnsan Hüquqları Konvensiyasıdır** dir.

**Bu, 1948-ci ildə insan hüquqlarına qətiyyən riayət edilmədiyi iki dəhşətli Dünya Müharibəsindən sonra baş vermişdir.**

**Daha ətraflı məlumatı bu saytdan ala bilərsən www.echr.coe.int/ECHR**

**İnsan hüquqları dünyanın hər yerində bütün insanlar üçün eynidir.**

Uşaqların xüsusi ehtiyacları vardır. Onlara daha çox müdafiə lazımdır, çünki onlar böyüyür və inkişaf edirlər. Buna görə də onların xüsusi şəkildə yazılmış hüquqları, **uşaq hüquqları** vardır və və onlar ayrıca sənəd olan **Uşaq Hüquqları Konvensiyası** nda yazılmışdır.

**18 yaşından aşağı olan insanlar**



☐ Yazdığın ehtiyaclar siyahısına bir daha nəzər yetir və ehtiyacın olanın hüquq olub-olmadığını yoxlamaq üçün **Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasına** bax

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ UŞAQ HÜQUQLARI KONVENSİYASINDA ƏKS OLUNMUŞ HÜQUQLARA NÜMUNƏLƏR

- ☐ Yaşamaq və inkişaf hüququ;
- ☐ Ayrı-seçkilikdən əziyyət çəkməmək hüququ;
- ☐ Ad və vətəndaşlıq hüququ;
- ☐ Valideynlərdən və məsuliyyət daşıyan digər şəxslərdən qayğı görmək hüququ;
- ☐ Zorakılığın və sui-istifadənin bütün formalarından qorunmaq hüququ;
- ☐ Sağlamlıq və tibbi xidmət hüququ;
- ☐ İnkişafına yardım edən yaxşı şəraitdə yaşamaq hüququ;
- ☐ Təhsil hüququ;
- ☐ Asudə vaxt, oyun və mədəniyyət hüququ;
- ☐ Fikir ifadə etmək və onları nəzərə aldırmaq hüququ;
- ☐ Öz düşüncələrinə, inanclarına və dininə sahib olmaq hüququ;
- ☐ Digər uşaqlarla görüşmək və onlarla birgə qrup və təşkilatlara daxil olmaq hüququ;
- ☐ Şəxsi həyat hüququ;
- ☐ İnformasiya əldə etmək hüququ;
- ☐ Qaçqın uşaqlar üçün xüsusi müdafiə hüququ;
- ☐ Əlilliyi olan uşaqlar üçün xüsusi müdafiə və yardım hüququ;
- ☐ Milli azlıqlara məxsus uşaqların öz ailələrinin dilini, dinini və adətlərini öyrənmək və onlardan istifadə etmək hüququ;
- ☐ Müharibələrdən zərər çəkmiş uşaqların xüsusi müdafiəsi hüququ.

**Azlıqlar dedikdə müəyyən ərazidə yaşayan inanların əksəriyyətindən fərqli dildə danışan və ya onlardan fərqli inanc, adət və ənənələrə sahib olan insan qrupları nəzərdə tutulur..**

**20 noyabr 1989-cu ildə razılaşdırılmış sənədin tam versiyasını aşağıdakı linkdən ala bilərsən http://www.unicef.org/magic/briefing/uncorc.html**

İnsan hüquqlarına hörmət edilmədiyi hər hansı bir haldan xəbərdarsan (dostlarından eşitdiyin kitablardan oxuduğun, televiziyadan gördüyün, özünün şahidi olduğun, və s) ?

Hüquqlarına hörmət edilmədiyini nə vaxta hiss etmisənmi ? O zaman nə etdin ?

Öz hüquqlarına və ya digər insanların hüquqlarına hörmət edilmədiyini gördükdə insanlar nə etməlidir ?

# 3 Demokratik vətəndaşlıq nədir ?

**Demokratiya** insan qrupunu təşkil etməyin mümkün yollarından biridir. Bu, ölkənin, hətta kiçik kəndin və ya sinifdəki şagirdlərin idarəetmə formasıdır.




☐ Yaşadığın yerin demokratiya olub-olmadığını yoxla

- ☐ Özləri üçün vacib olan məsələlərlə bağlı qərarı yalnız insanlar verir.
- ☐ Bir çox hallarda, insanlar birbaşa qərar qəbul etmir, amma onları və onların fikirlərini qərarların qəbulu zamanı təmsil edəcək insanları seçmək üçün səs verirlər.
- ☐ Seçilmiş insanlar öz maraqları naminə deyil bütün insanlar üçün fəaliyyət göstərirlər. Buna görə də onlar fəaliyyətlərinin səbəblərini açıqlamalıdırlar və buna görə məsuliyyət daşıyırlar.
- ☐ Səsvermədən əlavə insanlar qərarlara təsir göstərmək üçün başqa işlər də görə bilərlər. Onlar razılaşmadıqları məsələləri göstərə və ya birliklərdə iştirak edə bilərlər.
- ☐ Bir ölkədə **konstitusiya** və digər qanunlar ölkənin insanları olan vətəndaşların riayət edilməli olan qayda və prinsiplər üzərindəki razılığını əks etdirir.
- ☐ Qərarlar vətəndaşların əksəriyyətinin nə düşündüyünə uyğun olaraq qəbul edilir, amma azlıqların fikirləri də nəzərə alınır və azlıqların qrupları qorunur.

**Bu, ölkənin təşkilatlanmasının bazasını quran qayda və qanunlarının əsas qrupudur. Konstitusiya qanunların necə və kim tərəfindən qəbul edilib qorunmasını və həmçinin hökumət və vətəndaşlar arasındakı əlaqəni müəyyən edir.**

Demokratiya insanlardan ibarət qrupları təşkil etmək üçün bir sistemidir.
Buna görə də **demokratiya həqiqətən bizimlə başlaya bilər !**

Sənin məktəbində, komandanda və ya klubunda birlikdə işləmək, yaşamaq və işlər görmək məqsədilə hər birinizin riayət etdiyi qaydalar mövcuddurmu ?

Sənin sahib olduğun hüquq və məsuliyyətlər hansılardır ?

Bu qaydaları kim yaradıb ?

Onlar dəyişdirilə bilərmi ? Əgər belədirsə, necə dəyişdirilə bilər ?

İnsanlar bu qaydalara riayət etmədikdə nə baş verir ?





**Demokratik vətəndaşlıq :**
bu iki söz birlikdə insanların icmada və ya ölkədə oynamalı olduğu vacib rola yəni onları və onların icmalarına aidiyyatı olan qərarların qəbulunda fəal rol oynamasına istinad edir.




Vətəndaşların özləri tərəfindən yaradılmış və idarə edilən birliklər, gənclər təşkilatları və qeyri-hökumət təşkilatları (QHTlər) vasitəsilə insanlar icmalarının həyatına təsir edə bilər.

# 4 Demokratik vətəndaşliq və insan hüquqlari sahəsində təhsil nədir ?

Xartiya sadəcə **insan hüquqları** və **demokratik vətəndaşlıq** deyil həmçinin **təhsil** haqqındadır !

Təhsil həm bir hüquq həm də digər hüquqları mümkün edən vasitədir.




**Gənclərin hüquqlara çıxışı üçün olan layihələr barəsində daha ətraflı məlumat üçün bax www.coe.int/enter**

**Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil** sənin üçün şəxsiyyət və yaşadığın cəmiyyətin üzvü kimi vacib olan məsələlərdən bəhs edir.

**Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil** bizə aşağıdakı hallarda yardım edir :



Hüquqlarımızı və demokratiyanı başa düşmək **ONLAR HAQQINDA ÖYRƏNMƏK**



Hüquqlarımızı və demokratiyanı praktikada istifadə etmək, və hörmət edilmədikləri halda özümüzün və digər insanların da hüquqlarını müdafiə etmək **ONLAR ÜÇÜN ÖYRƏNMƏK**



İnsan hüquqlarının və demokratiyanın prinsiplərini yaşamaq və hiss etmək **ONLARIN SAYƏSİNDƏ ÖYRƏNMƏK**

**Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil** bir-birilərinə çox yaxın olduqları üçün bu sənəddə onlar haqqında yeganə ideya kimi söhbət açacağıq.



Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil = EDC/HRE




- Compasito-ya nəzər sal : www.coe.int/compasito
- Living Democracy (Yaşayan demokratiya) dərsliklərinə nəzər sal : http://www.coe.int/edc
- Müəllimlərindən və ya gənc liderlərindən bunlar haqqında bilib-bilmədiklərini soruş. Bu dərsliklərdə insan hüquqları və demokratiya **haqqında**, onlar **üçün** və onların **sayəsində** öyrənmək üçün EDC/HRE (Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil) fəaliyyətləri mövcuddur.

# 5 İnsan hüquqlari və demokratiyanin prinsipləri hansilardir ?







Bizim hökumətlər qaydalar yaratmalı və bu prinsiplərə riayət edilməsi və onların təşviqini təhsildə mümkün etməlidir.



Bu prinsiplərə sənin qrupunda riayət edilirmi ? Sonrakı səhifələrdə hər prinsipin yanında bu suala cavab verməkdə sənə yardımçı olacaq termometr görəcəksən.
**Bu elementləri öz gündəlik həyatında nə qədər gördüyünlə** bağlı təəssüratlarından asılı olaraq hər termometrdə işarə qoy (sinifində, qrupunda və ya təşkilatında, və.s).



# Müxtəlifliyi dəyərləndirmək

Yaşadığımız yerdə çoxlu mədəniyyət, din, həyatı yaşama və başa düşmə yollarını görə bilərik. Hamımızın bərabər hüquqları olduğu üçün fərqliliklərimizdən asılı olmayaraq hər kəsə hörmət etməmiz vacibdir.

İnsanlar çox zaman ayrı-seçkiliyə uğrayır, yəni fərqli olduqları üçün onlara hörmət edilmir. Ayrı-seçkilik bəzən digərlərinin bu insanlar haqqında həqiqətdən uzaq olan fikirləri üzündən baş verir. Bunlar ya eşitdikləri hadisələr ya da çox bəsit fikirlərdir. Tez-tez mətbuat informasiya vasitələri bu mənfi fikirləri təkrar edir və gücləndirir. Digər insanlar və qruplar barəsində danışarkən hadisələri həqiqət kimi qəbul etməzdən öncə iki dəfə düşünmək lazımdır.

"Canlı kitabxana" normal kitabxana kimi fəaliyyət göstərir. Oxucular ora gedərək müəyyən müddət üçün "kitab" götürür və onu oxuduqdan sonra kitabxanaya qaytarırlar. Burada sadəcə bir fərq var : Canlı kitabxanada olan kitablar insanlardır ! Onlar tez-tez ayrı-seçkiliyə uğrayan qruplara aid olurlar.

Kitablar və oxucular bir-biriləri ilə danışır. Beləcə oxucular real şəxsi görmək və bu qrup haqqındakı öncədən onlarda olan mənfi fikirləri dəyişmək şansına sahib olur.



Əksəriyyətdən fərqli olan insanları ölkəndəki mətbuat informasiya vasitələri necə təsvir edir ?

-------------------------------------------

-------------------------------------------

Səncə kütləvi informasiya vasitələri necə təsvir etməlidir ?

-------------------------------------------

-------------------------------------------

Hər kəs vacibdir. Müxtəlif insanlarla fikir mübadiləsi etmək və bir-birimizdən öyrənmək şansını qaçırmamalıyıq. **Müxtəliflik cəmiyyətimizi daha zəngin edir.**







- ☐ Məktəbinə və ya gənclər birliyinə "Canlı kitabxana" təşkil etmələrini təklif et
- ☐ Bunu necə etmək barədə aşağıdakı linkdə oxu http://www.eycb.coe.int/eycbwwwroot/hre/ > "Don't judge a book by its cover! The Living Library Organiser's Guide".

# Hər kəsi daxil etmək




Cəmiyyətimizdə heç kimin ayrı-seçkiliyə uğramamasına nail olmalıyıq, çünki kiminsə cəmiyyətdən xaric edilməsi üçün heç bir səbəb yoxdur : **biz hamımız insanıq !**

Sinifində və ya qrupunda özünü xaric edilmiş hesab edə bilən insanlar varmı ? Niyə?

---------------------------------------------

---------------------------------------------

İcmanda bu icmanın bir parçası hesab edilməyən insanlar varmı ?

---------------------------------------------

---------------------------------------------

Hər kəsin daxil edilməsini mümkün etmək üçün cəmiyyətinidə nə dəyişməlidir?

---------------------------------------------

---------------------------------------------

Məktəbində və ya təşkilatında oğlanlar və qızlar fərqli münasibət görürmü ?

---------------------------------------------

---------------------------------------------



# Hər kəsə bərabər şanslarivermək

Biz hamımız insan olduğumuz üçün bizimlə bərabər şəkildə rəftar edilməsinə və yaşadığımız cəmiyyətdə iştirak etmək şansına sahib olmağa çalışmalıyıq. Ailələr və inanclardakı fərqlərdən, nəyi və kimi sevdiyimizdən, oğlan və ya qız olmağımızdan və bacarıqlarımızdan asılı olmayaraq **biz hamımız eyni hüquqlara sahibik**.




- [ ] **Qonşuluğunu araşdır**
Xəritə üzərində sevdiyin yerləri işarələ. O yerlərə get və əngəlli şəxslərin (hərəkət, görmə, eşitmə...) oralara asanlıqla gedə və əylənə bilməsini yoxla. Bu insanların qonşuluğunda rahat və təhlükəsiz şəkildə yaşaya, işləyə və ya oynaya bilib-bilmədiyii haqqında düşün.

Birləşmiş Krallıqdakı yerli gənclər təşkilatımızda Uilyam (William) adlı oğlan var. O, əl və ayaqlarının hərəkətinə mənfi təsir edən beyin iflici keçirmişdir və danışa bilmir.

O, bizə qoşulduqdan bəri fəliyyətlərimizi təşkil edərkən daha diqqətli oluruq. Başlanğıcda asan olmadı. Amma indi onun da iştirak edə bilməsi üçün ənənəvi fəaliyyətləri ona uyğunlaşdırmaq təbii alınır.

Məsələn, qrup əngəl cığırını istədiyi zaman bu oyun təşkil edildi və qrup iki komandaya ayrıldı. Uilyamın komandasından onun yorğanın üstündə daşınması istənildiyi zaman digər komanda da üzvlərindən birini yorğanın üstündə daşımaq üçün seçdi.

Yaxşı ki, Uilyam cəsurdur. Onun komandası sadəcə bir neçə dəfə dayanmalı oldu, çünki Uilyam və komanda üzvləri çox gülürdü.



Daha ətraflı məlumat üçün : www.ifm-sei.org > "All Together" campaign.

# İnsan ləyaqətinə hörmət etmək

**Bizi bütün fərqliliklərə baxmayaraq birləşdirən insan ləyaqətidir.** Bizə insan kimi dəyər verilməsi üçün sadəcə buna ehtiyacımız var. Heç kim başqaları ilə qəddarlıqla və şiddətlə rəftar etməməli və başqaları ilə təhqiramiz şəkildə davranmamalıdır.

Daha güclü sinif yoldaşları onları qorxutduğu, incitdiyi və ya pis rəftar etdikləri, yəni hədə-qorxu gəldikləri, üçün insanlar məktəb və ya qruplarında özlərini təhlükədə hiss etdiklərində onların insan hüquqları tapdanmış olur.







Sənin məktəbində və qrupunda hər kəs özünü təhlükəsiz hiss edirmi ?

---

- ☐ Yaşı 18-dən aşağı olan və hədə-qorxularla üzləşən insanların zəng edə biləcəyi yerli qaynar xəttin olub-olmadığını yoxla.
- ☐ QAYNAR XƏTT NÖMRƏSİ : ____________________



# Sülh içində yaşamaq

Əgər hamımız insan hüquqları və demokratiyanın prinsiplərini tətbiq etsək daha ədalətli və daha dinc dünya mümkün ola bilər. Amma, bir yerdə yaşamaq hər zaman asan deyil. Buna görə də anlaşılmazlıq və münaqişələr üçün hər zaman səbəblər olacaq.

Bu cür münaqişələri **sülh yolu** ilə həll etmək vacibdir. Hər kəsin qəbul edəcəyi həll yollarını tapmağa yardım etdiyinə görə dialoq ən səmərəli yol hesab edilir.

Mənim məktəbimdə və İspaniyanın bir sıra orta məktəblərində şagirdlər arasındakı münaqişələrin həll edilməsi üçün vasitəçilik sistemi mövcuddur. Neytral mövqeli şagird münaqişədə olan hər iki şagird ilə danışaraq və şiddət yolundan qaçaraq hər iki tərəf üçün müsbət həll yolu tapmaq məqsədilə öz dəstəyini göstərir. Bu sistem sayəsində şagirdlər arasında daha yaxşı münasibət mövcuddur. Böyük insana ehtiyac yoxdur və cəzalar aradan qalxır. Bizim içimizdən *münaqişə vasitəçisi* olmaqda maraqlı olan hər kəs öz adını siyahıya yazdı. Bir neçə seçmə prosedurundan sonra seçilənlərə peşəkar vasitəçilər təlim keçdi.

Qrupunun və ya sinifinin üzvləri arasındakı münaqişəni necə həll edirsən ? or class?








# 6 Demokratik vətəndaşliq və insan hüquqlari sahəsində təhsil ilə kim məşğul olur ?

TƏHSİL sözünü eşitdikdə ağlına ilk nə gəlir?

**Məktəb** sözü cavabların əksəriyyətini təşkil edir. Amma insanların bu cür məsələləri öyrənməsi üçün yeganə yer oradırmı ?

İnsanlar bu cür məsələləri harada öyrənə bilər ? Məktəb, qonşuluq, kitabxana...

---------------------------------------

---------------------------------------

---------------------------------------

---------------------------------------



Bizim **hökumətlərimiz** və **müəllimlərimiz** EDC/HRE-nin (Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil) uşaq bağçasında, orta məktəbədə, universitetdə və ali təhsilin bütün formalarında tədris proqramına daxil edilməsi üçün çalışmalıdırlar.

Bütün bunlar EDC/HRE-nin sadəcə uşaqlar və gənclər üçün olmadığınımı bildirir ?

Elədir ki var ! EDC/HRE yaşından asılı olmayaraq hər kəs üçündür, çünki bütün həyatımız boyu öyrənməliyik.

EDC/HRE hər kəs üçündür və bütün həyatmız boyu davam edir

**Gənclər təşkilatları** və **qeyri-hökumət** təşkilatları (QHTlər) EDC/HRE-də bir çox səbəblərə görə vacib rol oynayırlar :

- çalışdıqları icmalarda daha yaxşı həyatın olmasına töhfə verirlər
- insan hüquqları və demokratiya barəsində çalışmaq istədiyində tez-tez yerlə təmin edirlər

**EDC/HRE üçün hökumətlərimizin gənclər təşkilatlarının və QHTlərin təhsildə oynadıqları rolun dəyərini tanıması və ehtiyac olduğunda onları dəstəkləməsi vacibdir.**

Biz həmçinin **gündəlik təcrübəmizdən, mühitimizdən** və **birgə yaşadığımız** insanlardan (qonşular, kütləvi informasiya vasitələri, dostlarımız...) öyrənirik.

EDC/HRE ilə işlədikdə bizə təsir edə bilən insanları, yerləri və ya təsisatları cəlb etmək vacibdir.



- [ ] 20-ci səhifədəki siyahıya, yeni öyrənmək üçün yerlər və insanlarla bağlı səhifəyə geri dön və bu fəsildə ortaya çıxan və sənin unutduğun yeni fikirləri əlavə etT

Heç özünü qrupunun və ya sinif yoldaşlarının müəllimi kimi düşündünmü ? Bu barədə ən güclü tərəflərin hansılar ola bilər ?

Önçəki fəsillərdə gənclərin öz sinif yoldaşları ilə EDC/HRE barəsində  çalışmasıyla bağlı həvəsləndirici misallar gördünmü ?





**Bir çox yerlər və insanlar təhsildə iştirak edir. EDC/HRE onların hamısını maraqlandırır. Buna görə də Xartiyada qeyd edilən tövsiyələr hər kəs tərəfindən nəzərə alınmalıdır.**

# 7 Məktəblər və təşkiltlar insan hüquqlarina və demokratiyaya hörmət edirmi ?

**Demokratiyanı və insan hüquqlarını bunlara hörmət etməyən mühitdə öyrənmək mümkün deyil.**

Xartiya ECD / EDH ilə işləyən təsisatların, xüsusən də **məktəblər** və **gənclər təşkilatlarının** insan hüquqlarının prinsiplərinə və dəyərlərinə hörmət etməli olduğunu və demokratik şəkildə təşkil edilməli olduğunu vurğulayır.






EDC/HRE-nin dəyər və prinsplərini ətrafında (məktəbində, təşkilatında, idman klubunda...) gördüyünü söyləyə bilərsən ? Fəsil 5-də olan termometrdəki qeydlərə baxmaq cavab verməna yardım edəcək

- ☐ həmişə
- ☐ tez-tez
- ☐ nadir hallarda
- ☐ heç vaxtt

İnsan hüquqları və demokratiyanın prinsiplərini təşviq etmək üçün məktəbinin və ya gənclər təşkilatının gördüyü və ya görməli olduğu xüsusi işlər barəsində düşünə bilərsənmi ?

Məktəblər və gənclər təşkilatları **nəzəriyyəni praktikada tətbiq etmək** üçün böyük fürsət yaradır. Orada insan hüquqlarını və demokratiyanı yaşayaraq öyrənə bilərik.

Məktəbinin/gənclər təşkilatının fəaliyyəti ilə bağlı sənin fikirlərin nəzərə alınırmı ?

---------------------------------------------

---------------------------------------------

Qərarlar sənin qrupunda və ya sinifində necə qəbul edilir ?

---------------------------------------------

---------------------------------------------

Bu təkmilləşdirilə bilərmi ? Necə ?

---------------------------------------------

---------------------------------------------

Demokratiya **hər kəs iştirak etdiyi** zaman səmərəli olur və bu, EDC/HRE.üçün də belədir.

Sənin nəyi öyrənəcəyinə kim qərar verməlidir ?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------



Bunu etməyin mümkün yollarından biri **şagird şurası (və ya birliyidir)**. Bu, yalnız şagirdlərin birliyidir və onlar tərəfindən məktəb barəsində fikirlərinin və narahatlıqlarının eşidilməsi üçün istifadə edilir. Bəzi məktəblərdə şagird şuraları sadəcə fikirlərini bildirmir, onlar həmçinin məktəbin əsas qərarverici qurumu olan idarə heyətində səs verə bilir.

☐ Məktəbində şagird şurasının və ya təşkilatında bənzər qurumların olub-olmadığını yoxla: ☐ Bəli ☐ Xeyr

Cavab BƏLİ olarsa

☐ Onun əsas vəzifəsinin nə olduğunu yoxla

Cavab XEYR olarsa :

☐ Şagird şurasını yaratmağa yardım almaq üçün milli şagird şurasına müraciət et (məlumatı aşağıdakı saytdan al www.edufile.info)

Amma sadəcə iştirak yetməz ! Hər kəs öz üzərinə **məsuliyyət** almalıdır.



Fikirlərimizin sinifdə paylaşılacağına razı olsaq düşündüklərimizi söyləməliyik. Amma biz bunu etmək üçün hər kəsə də şans verməli və onların bizimkilərdən fərqli olan fikirlərinə hörmət etməliyik.

Gəl hökuməti unutmayaq ! Bizim hökumətlərimiz təhsillə bağlı qərarlarda iştirak etməli və bunun üçün üzərlərinə məsuliyyət almalıdırlar.

# 8 Demokratik vətəndaşliq və insan hüquqlari sahəsində təhsili təşviq etmək üçün nə etməliyik ?




## Əməkdaşlıq

- Bütün insanlar və təsisatlar EDC/HRE-i təşviq etmək üçün bir-birilərinə yardım etməlidir.
- Müxtəlif səviyyələrdə əməkdaşlıq bizi çox zənginləşdirir : EDC/HRE fəaliyyətləri kiçik səviyyədə başlayıb bütün dünyanı əhatə edəcək qədər genişlənə bilər.
- Hökumətlər həm ölkədə digər insanlar və təsisatlarla və həm də digər ölkələrdəki hökumətlərlə yaxından işləməlidir



# Müəllimlərə və gənc liderlərə təlim keçmə

- Müəllimlərin EDC/HRE üzərində işləmək üçün hazırlanması vacibdir. Buna görə də onlar üçün mütəmadi treyninqlər keçirilməlidir.
- Hökumətlər müəllimlərin treyninq planlarının və onların keçirilməsi üçün maliyyə və mütəxəssislərin olmasına diqqət etməlidir.

- [ ] Müəllimlərindən EDC/HRE haqqında necə öyrəndiklərini soruş. Onlardan bu məsələ ilə bağlı son dəfə nə zaman treyninq keçdiklərini soruş.
- [ ] **Müəlliminlə** birlikdə Təhsil işçilərinin Treyninqi üçün Avropa Şurasının Pestalozzi Proqramı çərçivəsində onun üçün hansı treyninq fürsətlərinin olduğuna bax: www.coe.int/pestalozzi/
- [ ] **Gənc liderinlə** birlikdə Gənclər sektorunun səhifəsində nun üçün hansı treyninq fürsətlərinin olduğuna bax : www.coe.int/youth

# Qiymətləndirmə

- Fəaliyyətin gələcəkdə təkmilləşdirilməsi üçün onun indi necə həyata keçirilməsi haqqında düşünmək vacibdir
- EDC/HRE fəaliyyətlərində iştirak edənlərdən bu haqda nə düşündüklərini soruşmaq lazımdır.



İştirak etdiyin fəaliyyətdən və ya dərsdən sonra öz fikrini tez-tez ifadə etmək fürsətin heç oldumu ?

---------------------------------------------

Fikrin necə nəzərə alına bilər ?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

# Araşdırma

- EDC/HRE ilə bağlı məlumat, məsələn öyrənənlər üçün vacib olan təcrübələr, metodlar və ya hansı məsələlər, toplanmalıdır.
- Bu, EDC/HRE-nin yerlərdə inkişafını ölçmək üçün istifadə edilə bilər.
- Nəticələr EDC/HRE -ni təkmilləşdirmənin yolları haqqında da bizə ideya verə bilər.



Araşdırma prosesi Serbiyanın məktəb şagirdləri Birliyi (SMŞB) tərəfindən təşkil edildi. Məqsəd ölkədə şagird şuraları üçün ən yaxşı iş modelini tapmaq idi. Araşdırmadakı vasitələrdən biri 8500 şagird və 2000 müəllimin doldurduğu sorğu vərəqəsi idi. Şuralarda nəyin yaxşı, nəyin pis olması və vəziyyətin yaxşılaşdırılması üçün nəyin edilməsi barədə onlara sual verilmişdi. Suallardan biri şagirdlərin məktəb idarə heyətində səs verməli olub-olmadıqları ilə bağlı idi. Şagirdlərin 85%-dən və müəllimlərin 50%-dən çoxu BƏLİ deyə cavab vermişdir. Araşdırmanın nəticələri hökuməti bu dəyişikliyi Serbiyanın təhsil qanununa salmaq üçün inandırmaqda çox kömək etdi.

# Təcrübələri bölüşmə

DEMOKRATİK VƏTƏNDAŞLIQ VƏ İNSAN HÜQUQLARI SAHƏSİNDƏ TƏHSİL haqqında təcrübələri bölüşmək çox müsbət addımdır :

- Bu, uğurlu olmayan təcrübələrin təkrar edilməsinin qarşısını alır.
- Bu, digər insanların uğurlu keçən təcrübələri başqa yerlərdə təkrar etməsi üçün ilham qaynağı ola bilər.

☐ Əgər sənin məktəbinin və ya təşkilatının xəbər bülleteni və ya internet səhifəsi varsa sinifində və ya qrupunda olan EDC/HRE ilə bağlı təcrübələri yazmaq üçün istifadə et.

Bu sənəddə oxuduğun bütün müsbət misallardan hansı sənə daha çox maraqlı gəldi ? Niyə?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------



# Hər kəsi məlumatla təchiz etmə

Xartiyadan nə qədər çox insanın xəbəri olarsa EDC/HRE -nin də təkmilləşmək şansı bir o qədər çox olar. İnsanları məlumatlandırmağın çox yolu var. Buklet onlardan biridir.

**Organising Bureau of European School Student Unions (Avropa Məktəb Şagirdlərinin Birliklərinin Təşkilat Bürosu): www.obessu.org**

**European Students Union (Avropa Tələbələr Birliyi ) www.esu-online.org**

**Kampaniya haqqında daha ətraflı məlumat əldə etmək üçün : http://lightontherights.wetpaint.com**

"Hüquqları işıqlandırma" (“Light on the Rights”) OBESSU  və ESU  tərəfindən birgə hazırlanmış və"Məktəb Şagirdlərinin Hüquqlarının Bəyannaməsi"ni təşviq etmək məqsədi daşıyan kampaniya idi.
"Avtobus turu" (“Bus tour”) təşkil edildi. Kampaniyanın rəsmini daşıyan avtobusla təşkilatçı birliklərin üzvləri müxtəlif ölkələrdə dayanaraq bütün Avropanı gəzdilər. Onlar təntənəli şəkildə qarşılandılar. Bu, Avropadakı bütün ikinci dərəcəli şagird birliklərinin özlərini təqdim etmək və ölkələrindəki şagirdlərin hüquqlarını təşviq etmək üçün böyük fürsət idi.




Sənсə Xartiya haqqında məlumatın verilməsinin hansı müxtəlif yolları vardır ?

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------

---------------------------------------------


**Demokratiya və insan hüquqları bizimlə başlayır.** Biz hamımız onların həyata keçməsi üçün nə isə edə bilərik.
Demokratik vətəndaşlıq və insan hüquqları sahəsində təhsil bunun üçün yaxşı vasitədir. Biz də EDC/HRE-nin aramızda daha çox yayılmasına öz töhfəmizi verə bilərik.


EDC/HRE haqqında daha çox şey bildiyin üçün dostlarınla bu barədə hansı fikirləri bölüşmək istərdin ?
Bu fikirləri və həmçinin sənin şəxsi düşüncə və təcrübələrini oxumaqdan məmnunluq duyardıq. Onları bu elektron ünvana göndərin : edchre@coe.int!

Bu material Demokratik Vətəndaşlıq və İştirak Direktoratlığı (Təhsil və Gənclər Departamentləri) və Avropa Şurasının “Uşaqlar üçün və uşaqlarla birgə Avropanın formalaşdırılması” Proqramı ilə əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Layihə bir çox tərəfdaşların, o cümlədən təlimçilər, gənclərin QHT-ləri, uşaq və gənclərin dəstəyi, fikir və rəyləri əsasında həyata keçirilmişdir. OBESSU-ya (Avropa Məktəb Şagirdləri Birliklərinin Təşkilat Bürosu) və IFM-SEI-yə (Beynəlxalq falkon hərəkatı – Sosialist beynəlxalq təhsil) xüsusi minnətdarlığımızı bildirmək istərdik.

1949-cu ildə yaradılmış Avropa Şurası insan hüquqları, demokratiya və qanunun aliliyi kimi dəyərləri paylaşan 47 ölkəni bir araya gətirir. Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil haqqında Xartiyası bu dəyərlərin təhsildə və təhsillə təşviq edilməsinə əmin olmaq üçün hazırlanmışdır. Xartiyanın indiki versiyası ("Hər kəs üçün Xartiya") hamı üçün, xüsusən də beynəlxalq qanuni sənədin nə olduğunu bilmək və demokratiyanı və insan hüquqlarını sinifdə, gənclər təşkilatında və daha geniş mənada cəmiyyətdə təşviq etmək üçün bu sənədin necə istifadə edilməsini öyrənmək istəyən gənclər üçün nəzərdə tutulub.

www.coe.int/edchre

Mail: edchre@coe.int

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE